Azərbaycan Demokratiya və Rifah (ADR) Partiyasının ictimai fəal Bəxtiyar Hacıyevə qarşı törədilmiş cinayətlə bağlı Bəyanatı

Böyük təəssüf hissi ilə bildiririk ki, aprelin 21-də gecə 23 radələrində tanınmış ictimai fəal Bəxtiyar Hacıyev 4 maskalı şəxs tərəfindən oğurlanaraq naməlum istiqamətə aparılıb və ona fiziki və mənəvi işgəncələr edilib. Bəxtiyar Hacıyevin bildirdiyinə görə həmin şəxslər ondan əsasən ölkənin Daxili İşlər naziri (DİN) ilə bağlı yazdığı statusların silinməsini tələb ediblər. Nazirlik rəsmiləri inkar etməsinə baxmayaraq, zərərçəkmişin və ekspertlərin dəyərləndirməsinə görə vandalcasına törədilmiş bu əməlin arxasında DİN rəhbərliyinin olduğu aşkar görünür. Nəzərə alsaq ki, bu hadisədən sonra tanınmış hüquq müdafiəçisi Rüfət Səfərova qarşı da Apelyasiya Məhkəməsinin həyətində polislər xüsusi amansızlıq nümayiş etdirilib. İstənilən halda ölkədə vətəndaşların və asayişin qorunmasına cavabdeh olan qurum kimi cinayətkarların tapılıb, ifşa olunmasına görə də DİN məsuliyyət daşıyır.
Biz ADR Partiyası olaraq ictimai fəal Bəxtiyar Hacıyevə və hüquq müdafiəçisi Rüfət Səfərova qarşı vəhçicəsinə törədilən əməlləri kəskin şəkildə qınayır və bu cinayətləri törədənlərin dərhal tapılıb cəzalandırılmasını əlaqədar qurumlardan tələb edirik.
Bəyanat 24 aprel 2022-ci il-ci ildə ADR Partiyasının İdarə Heyətində yekdilliklə qəbul olunub.